# Müasir dövrdə Azərbaycan iqtisadiyyatı və onun əsas inkişaf istiqamətləri

**Azərbaycan dünyada iqtisadi cəhətdən dinamik inkişafda olan ölkə kimi tanınmaqda davam edir. Təqdirə layiq haldır ki, bu uğurlar planeti qlobal maliyyə böhranının bürüdüyü, hətta inkişaf etmiş dövlətlərin iqtisadiyyatının tənəzzülə uğradığı bir şəraitdə qazanılır.**



*Təsadüfi deyildir ki, dünyanın bir çox nüfuzlu beynəlxalq qurumları Azərbaycanın əldə etdiyi uğurları yüksək qiymətləndirir, özlərinin illik hesabatlarında ölkəmizi iqtisadiyyatı dinamik inkişaf edən dövlət kimi dəyərləndirirlər.*

Təbii ki, bu inkişafın əsasını Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar təşkil edir. Ölkə başçısı tərəfindən sahibkarlığın inkişafına, investisiyaların qorunmasına, azad rəqabət mühitinin yaradılmasına xüsusi diqqət verilir ki, bu da dünyanın nüfuzlu maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir.

Dünya İqtisadi Forumunun ekspertləri Azərbaycanda fiziki və intellektual əmlakın qorunması, ictimai fondların diversifikasiyası, müstəqil məhkəmə orqanlarının mövcudluğu, etnik azlıqları təmsil edən iş adamlarının müdafiəsi, polis xidmətinə olan etimad və bu qəbildən olan digər amillər baxımından əhəmiyyətli işlərin görüldüyünü, ciddi nailiyyətlərin əldə olunduğunu bəyan edir.

Bununla yanaşı, infrastrukturun, o cümlədən yolların, dəniz limanının, elektrik təchizatının, telefon xidmətlərinin keyfiyyətindən məmnunluq ifadə olunur. Həmçinin ölkəmizdə yeni texnologiyaların tətbiqi, internetdən istifadənin yüksək olması, fərdi kompyuterlərin sayının artan xətt üzrə inkişaf etməsi, eləcə də qiymətli kağızlara çıxışın asan olması, investorların müdafiəsinin gücləndirilməsi, bankların sağlamlığı, menecmentin, təhsil və elmin, mədəniyyət və səhiyyənin keyfiyyəti, innovasiyalar yüksək dəyərləndirilir.

Bütün bunlar Azərbaycanda yalnız iqtisadiyyatın deyil, digər sahələrin də dinamik inkişafda olduğunu əyani şəkildə nümayiş etdirməkdədir. Məhz bu səbəbdəndir ki, Azərbaycan hərtərəfli inkişafına görə dünyanın əksər dövlətləri üçün nümunədir.

İndi bunları xüsusi fərəh hissilə diqqətə çatdırarkən onu da qeyd etməliyik ki, dövlət başçımızın 2003-cü ildən iqtisadi siyasətin ana xəttinə çevirdiyi regional inkişaf konsepsiyasını son bir ildə də inamla davam etdirmiş, bölgənin tərəqqisi naminə bir sıra mühüm fərman və sərəncamlar, dövlət proqramları imzalanmışdır.

2009-cu ilin fevralında "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın yekunlarına həsr olunmuş toplantıda bu proqramın inkişaf və tərəqqi prosesindəki fundamental əhəmiyyəti bir daha önə çəkilmiş, əldə olunan böyük uğurlardan söz açılmışdır. Dövlət başçısı İlham Əliyevin 14 aprel 2009-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın da başlıca məqsədi bu sahədə həyata keçirilən siyasətin davamı olaraq ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır. Eyni zamanda, dövlət başçısı İlham Əliyevin bu ilin aprelində imzaladığı "Xüsusi iqtisadi zonalar haqqında" qanun da ölkəyə investisiyaların cəlbi baxımından əlavə imkanlar açır.

Regionların tərəqqisi, əyalətlərdə yeni iş yerlərinin açılması, urbanizasiya prosesinin səviyyəsinin azaldılması, sosial infrastrukturun yenilənməsi məqsədilə imzaladığı sənədlərin icra vəziyyətilə tanış olmaq, sıravi insanlarla birbaşa ünsiyyət quraraq mövcud çətinliklər barədə informasiyaları ilkin mənbədən almaq üçün vaxtaşırı Azərbaycanın müxtəlif rayonlarına təşkil edilən ardıcıl səfərlər cənab İlham Əliyevin fəaliyyətinin üstün istiqamətlərindən biri kimi diqqəti çəkir. Vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, özünəməxsus təmkin və həssaslıqla onların problemlərini dinləyən, mövcud çətinliklərin həlli üçün qəti tapşırıqlar verən cənab İlham Əliyevin tələbkarlığı ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir, xalqın öz rəhbərinə inamını, etimadını daha da artırır.

Azərbaycan Prezidentinin bölgələrə səfərləri kampaniyaçılıqdan tamamilə uzaq olmaqla onun təkmil idarəçilik üslubunun mahiyyətindən irəli gəlir. Azərbaycan Prezidenti İlham Əliyev 2004-2008-ci illərdə respublikanın əksər rayonlarına, o cümlədən Bakı kəndlərinə səfərlər etmiş, regionların sosial-iqtisadi inkişafı dövlət proqramı çərçivəsində görülən işlərlə maraqlanmış tapşırıq və tövsiyələrini vermişdir. Cənab İlham Əliyev beş ildə respublika regionlarının bütün rayonlarına 127 səfər etmiş, o cümlədən 6 dəfə Naxçıvan Muxtar Respublikasında olmuş, yerlərdə görülən işlərlə, xalqın həyat səviyyəsi ilə maraqlanmış, tapşırıq və tövsiyələrini vermiş, ölkənin abadlaşması və inkişafı üçün əhəmiyyətli olan 500-dək müəssisə və obyektin təməlqoyma və açılış mərasimlərində şəxsən iştirak etmişdir.

2008-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev ölkə regionlarına 14 səfər etmiş, respublikanın 26 şəhər və rayonunda (Gəncə şəhərində, Füzuli, Ağdam, Beyləqan, Biləsuvar rayonlarının hər birində 2 dəfə olmaqla), həmçinin Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur.

2009-cu ilin müvafiq dövründə isə cənab İlham Əliyev Bərdə, Yevlax, Mingəçevir, Gəncə, Göygöl, Şəmkir, Gədəbəy, Quba, Qusar, Hacıqabul rayonlarında, o cümlədən 2 dəfə Naxçıvan Muxtar Respublikasında səfərdə olmuş, bölgələrin ümumi vəziyyəti ilə yaxından tanışlıq imkanı qazanmış, bir sıra yeni obyektlərin açılış mərasimində iştirak etmişdir. İlin ötən 10 ayında Beynəlxalq Avtovağzal Kompleksi, Xırdalan dairəsində tunel tipli yolötürücü, Bakı-Quba-Rusiya dövlət sərhədi avtomobil yolunun 16-cı kilometrində körpü tipli yolötürücü, Babək prospektindəki yeni yol qovşağı, Nəqliyyat əməliyyatlarının intellektual idarə edilməsi Mərkəzi, Bakı Şəhər Baş Polis İdarəsinin yeni binası, Moskva Dövlət Universitetinin filialı, Müasir İncəsənət Muzeyi, akademik Zərifə Əliyeva adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun yeni binası, Azərbaycan Respublikası Ali Məhkəməsinin yeni inzibati binası, Daxili İşlər Nazirliyinin hospitalı və İdman Cəmiyyəti, Müdafiə Sənayesi Nazirliyinin Hesablayan Elektron Maşınlar Zavodu, Mərkəzi Klinik Xəstəxananın ambulatoriyası, Milli Onkologiya Mərkəzinin cərrahiyə korpusu, Dövlət Sərhəd Xidmətinin "Sərhədçi" Olimpiya İdman Mərkəzi, Milli Məclisin yeni korpusu, Azərbaycan Rəssamlar İttifaqının, Azərbaycan Bəstəkarlar İttifaqının yeni binaları, Təzəpir məscid kompleksi və s. son bir ildə paytaxtda rəsmi açılış mərasimləri keçirilmiş iqtisadi, sosial, hüquqi, mədəni, elmi əhəmiyyətli obyektlərin yalnız bir qismidir. Paytaxtda və regionlarda yüzlərlə yeni müəssisə və obyektin açılış və təməlqoyma mərasimlərinin keçirilməsi, böyük quruculuq-abadlıq işləri Azərbaycanın böhrana maksimum dərəcədə müqavimət göstərən dövlətlər sırasında olduğunu bir daha təsdiqləyir.

● Rəşad MURADƏLİYEV

## Ədəbiyyat


1. Azərbaycan Prezidenti İlham Əliyevin "Əsrin müqaviləsi"nin 15-ci il dönümünə həsr olunmuş təntənəli mərasimdə nitqi. "Azərbaycan" qəzeti - 17 sentyabr 2009-cu il
2. Tətbiqi kulturologiya. B. "Mars Print" - 2004
3. "Mədəniyyət dünyası" - 2006 № 13.
4. "İncəsənt və Mədəniyyət problemləri" - 2007 № 2/3
5. R.Bayramov. İqtisadi tənəzzülün dəf edil məsində Azərbaycan yolu. "Azərbaycan" qəzeti - 6 oktyabr 2009-cu il